**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**Azərbaycan Respublikasının
Təhsil Nazirliyinin
F-363 nömrəli 07 08 2020-ci il
tarixli qərarı ilə təsdiq
edilmişdir.**

ƏSLİ İLƏ
DÜZDÜR

AZƏRBAYCAN RESPUBLİKASI
VƏTƏNDAŞLARIN
MÜRACİƏTLƏRİ İLƏ İŞ
VƏ KOMMUNİKASİYA
ŞÖBƏSİ
TƏHSİL NAZİRLİYİ

# BAKALAVRİAT SƏVİYYƏSİNİN (ƏSAS (BAZA) ALİ TƏHSİLİNİN) İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**İxtisasın (proqramın) şifri və adı: 050206 Hüquqşünaslıq**

**BAKI – 2020**

# BAKALAVRİAT SƏVİYYƏSİNİN 050206 Hüquqşünaslıq İXTİSASI ÜZRƏ TƏHSİL PROQRAMI

## 1. Ümumi müddəalar

1.1. Bakalavriat səviyyəsinin **"050206 Hüquqşünaslıq"** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübə keçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirir;
- Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və **"050206 Hüquqşünaslıq"** ixtisası üzrə bakalavr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

## 2. Məzunun kompetensiyaları

2.1. Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:

- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;
- İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;

- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma bacarıqlarına;
- Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyən etmə qabiliyyətlərinə;
- İş yerində informasiya texnologiyalarından istifadə etmək bacarığına;
- Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;
- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;
- Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;
- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;
- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;
- Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuruna və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına;
- Sistemli düşünə bilmək, sistemləri təhlil edərək elementlər arasında əlaqələri aşkarlayıb dərk etmək, müxtəlif sahələrdə və fərqli səviyyələrdə sistemli əlaqə prinsiplərini dərk etmək, qeyri-müəyyən şəraitdə fəaliyyət göstərmək səriştəsi;
- Strateji baxış formalaşdırmaq, fəaliyətin mümkün nəticələrini görə bilmək (mümkün, ehtimal edilən və arzu olunan), dərk etmək və qiymətləndirmək qabiliyyəti, fəaliyyyətin gələcəyi haqqında aydın fikirə malik olmaq, risk və baş verə biləcək dəyişiklkləri nəzərə almaq, qərarların qəbulunda yenilikçi və yaradıcı olmaq bacarığı;
- Başqalarına qulaq asmaq, dinləmək, onların ehtiyaclarını, hərəkətlərini anlamaq, fikirlərini öyrənmək, yaranan münaqişələri həll etmək, problemlərin həllinə yönəlik kollektiv əməkdaşlıqda iştirak və fərqli yanaşmalardan istifadə bacarığı;
- Qəbul edilmiş norma, yanaşma və fikirləri tənqidi təhlil etmək, öz baxışlarına və fəaliyyətinə tənqidi yanaşmaq, cəmiyyətdə öz rolunu tənqidi qiymətləndirmək bacarığı.

*2.2.* **Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:**

- Hüququn mənşəyi, anlayışı, mahiyyəti, funksiyaları, prinsipləri, hüquq münasibətləri, hüququn sosial normativ tənzimetmə sistemində yeri, hüquq və dövlət, hüquq və cəmiyyətin siyasi sistemi arasındakı qarşılıqlı münasibətlər, hüququn mənbələri, hüquq normaları, normativ-hüquqi aktlar, hüquqyaratma, hüququn sistemləşdirilməsi, hüquq sistemi, qanunvericilik sistemi, hüququn realizəsi və təfsiri, hüquq düşüncəsi və hüquq mədəniyyəti, hüquqi tənzimetmə mexanizmi, qanunçuluq və hüquq qaydası, hüquqauyğun davranış, hüquq pozuntusu, hüquq məsuliyyəti, hüquq, şəxsiyyət və vətəndaş cəmiyyəti ilə əlaqədar məsələləri, nəhayət, müasir dövrün əsas hüquq sistemlərini bilmək; (PK-1)
- Başlıca hüquqşünaslıq vərdişləri olan hüquqi yazı, hüquqi tədqiqat, hüquqi təhlil, hüquq məsləhətlərinin verilməsi, məhkəmə çıxışları və digərləri üzrə praktiki aspektləri, habelə, hüquqi arqumentlərin formalaşdırılması, əsas hüquqi sənədlərin tərtibi, müştərilərin müsahibəsi və şifahi məsləhətləndirilməsini, nəhayət, qlobal özəl hüquq praktikasında istifadə edilən yazışma və sənəd tərtib etmə metodlarını bilmək; (PK-2)
- Azərbaycan ərazisində ən qədim zamanlardan indiki dövrümüzə qədər mövcud olmuş dövlətlərin idarəçilik və hüquq sistemlərinin mahiyyətini, hüququnun mənbələrini, onun ayrı-ayrı sahələrinin tətbiqi və inkişafı ilə əlaqədar ən əsas xüsusiyyətlərini müasir tarixi-hüquqi nailiyyətlərlə müqayisəli əsaslarda təhlil etmək və bilmək; (PK-3)
- Konstitusiya hüquq institutları haqqında dərin təsəvvürə, konstitusion inkişaf tarixi və konstitusionalizmin nəzəri əsasları, dövlət, cəmiyyət və şəxsiyyət arasındakı konstitusion münasibətlərin əsasları, konstitusiya quruluşunun siyasi, iqtisadı və sosial əsasları, xalq hakimiyyəti və xalq suverenliyi, dövlətin siyasi-ərazi təşkili, dövlət hakimiyyətinin təşkili əsasları, seçki hüququnun anlayışı və prinsipləri, seçki prosesinin hüquqi tənzimi məsələləri, seçki sistemləri, qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının, habelə yerli özünüidarənin təşkili və fəaliyyəti əsasları, konstitusiya nəzarəti institutunun mahiyyəti və funksional təyinatı haqqında fundamental biliklərə malik olmaq, habelə hüquq və qanunun qarşılıqlı əlaqəsi, qanunvericilik sisteminin mahiyyətini bilmək; (PK-4)
- Mülki hüququn tənzim etdiyi ictimai münasibətləri digər hüquq sahələri ilə tənzim olunan ictimai münasibətlərdən fərqləndirməyi, fiziki şəxslərin hüquq və fəaliyyət qabiliyyəti anlayışını izah etməyi, hüquqi şəxslərin müxtəlif meyarlara görə təsnifatını aparmaq vərdişlərinə yiyələnməyi, mülkiyyət hüququnun yaranması və xitamı əsaslarını dərk etməyi, öhdəliklərin icrasının təmini üsullarını təhlil etməyi, əmlakın mülkiyyətə verilməsi və istifadəyə verilməsi, işlərin yerinə yetirilməsi və xidmətlərin göstərilməsi üzrə müqavilələrin ayrı-ayrı növlərini sadalamağı bacarmalı, deliktlərdən əmələ gələn öhdəliklərin ayrı-ayrı

növlərini təhlil etməyi, müəlliflik hüququ və patent hüququnun subyekt və obyektlərini təhlil etməyi, qanun üzrə və vəsiyyət üzrə vərəsəlik institutlarını fərqləndirməyi, praktik fəaliyyətdə onlardan istifadə etməyi, nəhayət nikahla əlaqədar münasibətlər, o cümlədən ailə üzvləri, eləcə də ailə qanunvericiliyində nəzərdə tutulmuş hallarda və həddə başqa qohumlar və digər şəxslər arasında yaranan əmlak və şəxsi qeyri-əmlak münasibətlərinin tənzimlənməsi qaydalarını və s. bilmək; (PK-5)

- Cinayət hüququnun tənzim etdiyi ictimai münasibətləri və prinsipləri, cinayət qanununun anlayışını, məkana və zamana görə qüvvəsini, ictimai təhlükəli əməllərin əlamətlərini və sistemini, cinayət anlayışı və onun tərkib elementlərini, cinayət məsuliyyətinin əsaslarını, cəza sistemini və ayrı-ayrı cəza növlərinin təyin olunma qaydalarını və şərtlərini, cinayət məsuliyyətindən və cəzadan azad olunma şərtlərini, nəhayət, ayrı-ayrı cinayətlərin əlamətlərini və tövsif qaydalarını bilmək; (PK-6)
- Beynəlxalq hüquq münasibətlərinin ayrı-ayrı növlərinin tənzimlənməsi elementlərini, beynəlxalq müqavilələr də daxil olmaqla beynəlxalq hüququn mənbələrinin məzmunu və milli hüquq sistemində yeri, o cümlədən tətbiqi xüsusiyyətlərini, beynəlxalq hüququn əsas prinsiplərinin beynəlxalq-hüquqi tənzimetmədə rolunu, beynəlxalq təşkilatların və beynəlxalq məhkəmə qurumlarının beynəlxalq və milli hüquqi tənzimetmədə əhəmiyyətini, nəhayət beynəlxalq hüququn ayrı-ayrı sahələrinin əsas xüsusiyyətlərini və istiqamətlərini bilmək;(PK-7)
- İnsan hüquqlarının mahiyyəti, prinsipləri, ayrı-ayrı insan hüquqlarının əsas səciyyəsi, onların müdafiəsi məsələləri, bu sahədə beynəlxalq məhkəmə presedentlərinin tətbiqi, ayrı-ayrı qrupların hüquqlarının müdafiəsi, ayrı-ayrı sahələrdə insan hüquqlarının müdafiəsi xüsusiyyətlərini, insan hüquqları sahəsində beynəlxalq və milli nəzarət mexanizmlərinin mahiyyəti və qarşılıqlı əlaqə xüsusiyyətlərini, nəhayət əhalinin ayrı-ayrı kateqoriyalarının hüquqi vəziyyəti və insan hüquqlarının müdafiəsi xüsusiyyətlərini bilmək; (PK-8)
- İnzibati hüquq münasibətlərinin hüquqi tənzimetmə xüsusiyyətlərini, dövlət idarəçilik mexanizminin mahiyyətini, icra hakimiyyəti orqanlarının inzibati hüquqi statusunun əsaslarını, dövlət qulluğunun təşkili və dövlət qulluqçularının inzibati hüquqi statusunu, icra hakimiyyətinin forma və metodlarını, inzibati məcburetmə tədbirlərinin xüsusiyyətlərini, inzibati-hüquqi rejimlərin mahiyyətini, inzibati xəta, inzibati məsuliyyət, inzibati xətalar haqqında işlər üzrə icraat və inzibati tənbeh kimi məsələləri, habelə ayrı-ayrı sahələrdə dövlət idarəçiliyinin xüsusiyyətlərini bilmək; (PK-9)
- İşçilərlə işəgötürənlər arasında yaranan əmək münasibətlərini, habelə onlarla müvafiq dövlət hakimiyyəti orqanları, hüquqi şəxslər arasında həmin münasibətlərdən törəyən digər hüquq münasibətlərinin tənzimlənməsi xüsusiyyətlərini, o cümlədən əmək qanunvericiliyi

normalarının tətbiq edilməsinin xüsusiyyətlərini, işəgötürənlərin və işçilərin hüquq və vəzifələrini, onların əmək hüquqlarının müdafiəsinin formalarını, kollektiv müqavilə, əmək müqaviləsi, əmək haqqı, iş vaxtı, istirahət hüququ, əmək mübahisələri, məsuliyyət, məzuniyyətlər, sosial təminat və əməyin mühafizəsi münasibətlərinin tətbiqi ilə əlaqədar məsələləri bilmək; (PK-10)

- Dövlətin maliyyə fəaliyyətinin və maliyyə hüquq münasibətlərinin hüquqi əsaslarını, vergi, bank sahəsində mövcud normativ-hüquqi müqavilələr də daxil olmaqla maliyyə hüququnun mənbələrinin məzmunu, maliyyə hüququnun ayrı-ayrı sahələrinin, o cümlədən, büdcə, vergi, pul dövriyyəsi, valyuta və s., bütövlükdə, dövlətin maliyyə siyasətinin əsas istiqamətlərini bilmək; (PK-11)
- Kommersiya hüququnun əsas sistemlərini, sahibkarlıq fəaliyyəti və sahibkar anlayışlarını, sahibkarlığın dövlət tənzimlənməsini, kommersiya təşkilatlarını, onların ləğvi və yenidən təşkil edilməsini, məhdud məsuliyyətli cəmiyyəti, səhmdar cəmiyyəti, kooperativi, sahibkarın hüquq və vəzifələrini, kommersiya təmsilçisini, ticarət agentini, broker və komisyonçunu, kommersiya konsessiyasını, əqli və sənaye mülkiyyəti hüquqlarını, əmtəə nişanlarını, firma adları kimi anlayışları, haqsız rəqabəti, antiinhisar fəaliyyətini və digər məsələləri bilmək; (PK-12)
- Hüquq sistemi olaraq Avropa İttifaqı hüququnun hüquqi təbiətini, onun struktur elementləri olan Avropa enerji hüququ, Avropa vergi hüququ, Avropa gömrük hüququ, Avropa daxili bazar hüququ, Avropa rəqabət hüququ və s. öyrənmək, Avropa İttifaqı hüququnun beynəlxalq hüquqi tənzimetmə sisteminin formalaşması və inkişafına təsirini, bu hüquq çərçivəsində normayaradıcılıq fəaliyyətinin, hüquq tətbiqetmə prosesinin xüsusiyyətlərini, müxtəlif sferalarda Avropa İttifaqı hüququnun standartları ilə Azərbaycan Respublikasının milli hüquq sisteminin harmonizasiyası imkanlarını bilmək; (PK-13)
- Beynəlxalq sferada yaranan xüsusi: mülki, ailə, əmək, əqli mülkiyyət və s. münasibətlərin tənzimlənməsini, bu istiqamətdə müxtəlif dövlətlərin hüquqi sistemləri arasında yaranan kolliziyaların aradan qaldırılmasını, beynəlxalq xüsusi münasibətlərlə bağlı yaranan mübahisələrin həlli xüsusiyyətlərini, bu mübahisələr üzrə çıxarılmış xarici məhkəmələrin və beynəlxalq arbitrajların qərarlarının tanınması və icrasını, beynəlxalq və dövlətdaxili hüquqi vasitələrdən birgə istifadənin xüsusiyyətlərini bilmək; (PK-14)
- Mülki prosessual hüquq münasibətlərinin yaranması əsaslarını və tənzimetmə xüsusiyyətlərini, mülki prosessual hüququn mənbələrinin məzmununu, onların təcrübi əhəmiyyətini, mübahisələrin məhkəmə aidiyyəti, işdə iştirak edən şəxslər və digər iştirakçıların hüquqi vəziyyətini, məhkəmədə nümayəndəlik, vəkilin mülki prosesdə rolu,

sübutlar, prosessual müddətlər, məhkəmə baxışı və s., nəhayət mülki məhkəmə icraatının ayrı-ayrı növlərinin elementlərini və xüsusiyyətlərini bilmək; (PK-15)

- Cinayət-prosessual fəaliyyətini tənzimləyən cinayət-prosessual qanun və digər normativ-hüquqi aktları öyrənməklə cinayət işləri üzrə istintaqı və təhqiqatı həyata keçirməyi, peşəkar fəaliyyətdə cinayətlərin açılması və istintaqının nəzəri əsaslarını tətbiq etməyi, konkret işlər üzrə obyektiv həqiqətin müəyyən edilməsi məqsədilə istintaq hərəkətlərinin aparılması zamanı texniki-kriminalistik metod və vasitələrdən, taktiki üsullardan istifadə etməyi, cinayət işləri üzrə ədalət mühakiməsinin vəzifələrinin yerinə yetirilməsinə yönəldilmiş, demokratik prinsiplər əsasında qanunla müəyyən edilmiş prosessual formada həyata keçirilən təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının cinayət işlərinin başlanılması, istintaqı, məhkəmədə baxılması və həll edilməsi üzrə fəaliyyət kimi cinayət prosesini öyrənməyi, hüquqpozmaların aşkar edilməsi zamanı prosessual sənədləri tərtib etməyi və zəruri prosessual hərəkətləri yerinə yetirməyi bilmək; (PK-16)
- İnzibati-prosessual hüququn mənbələrini, inzibati-prosessual hüquq münasibətlərinin tənzimetmə xüsusiyyətlərini, inzibati prosesin mahiyyəti, strukturu və növlərini, inzibati icraatın mahiyyəti və prinsiplərini, mərhələlərini, kollegial inzibati orqanlarda inzibati icraatın və inzibati şikayətlər üzrə icraatın xüsusiyyətlərini, inzibati məhkəmə icraatının mahiyyəti və prinsiplərini, inzibati mübahisələrin məhkəmə aidiyyətini, inzibati məhkəmə icraatında iddialar və onların növlərini, müvəqqəti xarakterli müdafiə tədbirlərini, birinci instansiya, apellyasiya və kassasiya instansiyası məhkəmələrində, həmçinin yeni açılmış hallar üzrə icraatın xüsusiyyətlərini, icra icraatının və qeydiyyat icraatının mahiyyətini və proseslə bağlı olan digər əhəmiyyətli məsələləri bilmək. (PK-17)
- Karyera barədə ilkin anlayışları, karyera inkişaf fəaliyyətlərini, iş müsahibəsinə hazırlıq prosedurlarını və müsahibə texnikalarını bilmək, karyera yol xəritəsinin tərtib olunmasını və texnikaları, iradə, motivasiya və pozitiv düşüncə, işgüzar etika, iş axtarma strategiyaları, eləcə də iş üçün müraciət qaydalarını, peşəkar CV, rezume, istək və tövsiyə məktublarının hazırlanmasını bacarmaq; (PK-18)
- Vaxtın effektiv idarə edilməsini, stres menecmentini, kreativ, tənqidi və analitik düşüncə formalarını bilmək, problem həll etmə və qərarvermə texnikalarına, natiqlik bacarıqlarına sahib olmaq, eləcə də komanda işinin qurulmasını bilmək və liderlik prinsiplərinə yiyələnmək; (PK-19)
- Layihələrin hazırlanması idarə edilməsində iştirak etmək və digər çox istifadə olunan proqram təminatlarından istifadəni bacarmaq, iş həyatında şifahi və yazılı kommunikasiya vasitələrindən istifadə etməyi bacarmaq; (PK-20)

- Media materialları ilə işləmək, müəyyən mövzular üzrə araşdırmalar aparmaq, faktiki materialları toplamaq, ümumiləşdirmək, nəticə çıxarmağı bacarmaq; (PK-21)
- Strateji düşüncə tərzini formalaşdırmaq, strateji məqsədlərin düzgün formalaşdırması, strategiyanın hazırlanması prosesində vəziyyətin analizini aparmağı bacarır; informasiya resurslarının strateji idarəolunması bacarıqlarına;strateji idarəetmə metodlarını tətbiq etməyi bacarmaq. (PK-22)

## 3. Təhsil Proqramının strukturu

3.1. **"050206 Hüquqşünaslıq"** ixtisası üzrə Təhsil Proqramı 240 (4 il) AKTS kreditindən ibarətdir. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Fənlərin sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| | **Ümumi fənlər** | **30** |
| 1 | **Azərbaycanın tarixi**<br>Bu fənn Azərbaycanın müasir dövlətçilik ənənələrinin yaranmasını, mərhələlərini, formalaşmasını və inkişafını öyrənir, müasir Azərbaycan dövlətçiliyinin güclənməsində siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolunu təhlil və tədqiq edir. Tələbələrimizdə vətənpərvərlik hissini aşılamaq üçün müxtəlif tarixi mərhələlərdə yaranmış dövlətlərin siyasi tarixi, ayrı-ayrı şəxsiyyətlərin qəhrəmanlıq nümunələri tarixi faktlar əsasında şərh olunur. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli təhlil edilir. Əsas məqsəd tələbələrdə geniş dünyagörüşünün, vətən sevgisinin, tarixi hadisələri analitik təhlil etmə qabiliyyətinin və hadisələrdən, siyasi proseslərdən düzgün nəticə çıxarmaq qabiliyyətini formalaşdırmaqdan ibarətdir. | 5 |
| 2 | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə Azərbaycan dilində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 4 |
| 3 | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 15 |
| 4 | **Seçmə fənlər** (Seçmə fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seşmə fənlərə əlavələr edilə bilər) | 6 |
| 4.1 | Fəlsəfə<br>Sosiologiya<br>Azərbaycan Respublikasının Konstitisiyası və hüququn əsasları<br>Məntiq<br>Etika | **3** |
| 4.2 | İnformasiya texnologiyaları (ixtisas üzrə) | |

| | | |
|---|---|---|
| | İnformasiyanın idarə edilməsi<br>Sahibkarlığın əsasları və biznesə giriş<br>Politologiya | 3 |
| | **İxtisas fənləri** | **120** |
| 5 | **Hüquq nəzəriyyəsi**<br>Hüquq nəzəriyyəsi hüququn ümumi və spesifik qanunauyğunluqları, onun mahiyyəti, sosial təyinatı və ictimai inkişafda rolu haqqında biliklər sistemini işəyib hazırlayan hüquqi elmdir. Hüquq nəzəriyyəsinin fundamentallığı onun hüququn yaranması, inkişafı və fəaliyyətinin bütün sahəvi hüquq elmlərinin əsasında duran ən ümumi qanunauyğullarını öyrənməsində ifadə olunur. Hüquq nəzəriyyəsi tərəfindən işlənib hazırlanan əsas anlayışlar və kateqoriyalar təməl başlanğıcları hesab olunurlar, sahəvi elmlərin öz xüsusi nəzəriyyəsinin formalaşdırılması və inkişafı üçün əsas qismində çıxış edir. Hüquq nəzəriyyəsi kursunun öyrənilməsinin məqsədi tələbələrdə hüququn inkişaf tendensiyalarını və xüsusiyyətlərini, cəmiyyətin siyasi sistemində və ictimai həyatında hüququn rolunu, onun ictimai münasibətlərin effektiv tənzimləyicisi kimi sosial dəyərliliyini, hüquqi tənzimləmənin mexanizm və vasitələrini, hüquq sistemini və qanunvericilik sistemini, normayaratma prosesini, normayaratma subyektlərinin səlahiyyətlərini, hüququn realizəsi formalarını, hüquq tətbiqetmə prosesini, qanunun təfsirinin qaydalarını, qanunçuluğun və hüquq qaydasının prinsiplərini və tələblərini, hüquq pozuntularının əlamətlərini, tərkibini, səbəblərini, hüquqi məsuliyyətin mahiyyətini, prinsiplərini, hüquqi məsuliyyətə cəlb etmənin və məsuliyyətdən azad edilmənin əsaslarını və s. öyərtməkdir. | 8 |
| 6 | **Hüquqi yazı**<br>Bu fənn tələbələri başlıca hüquqi yazı, təhlil və tədqiqat bacarıqları ilə tanış etmək, onları real hüquqi təcrübəyə hazırlamaq məqsədi ilə nəzərdə tutulmuşdur. Fənn hüquqi təhlil və yazının əsas anlayışları, müxtəlif hüquqi yazı üslubları, başlıca hüquqi sənədlər, həmçinin hüquqi müsahibə və məsləhətvermə vərdişlərini təhlil edir. Bundan əlavə, tələbələrə elmi hüquqi yazı üslubu da öyrədilir. Bu fənddə əsas diqqət interaktiv və parktiki yönümlü tədris metodlarına veriləcəkdir. Hər bir dərsdə tələbələr real təcrübədə çıxış edən hüquqşünas rolunda olacaqlar. Başqa sözlə, tələbələr real hüquqşünas praktikasına başlayarkən üzləşə biləcəkləri tapşırıqları yerinə yetirməyə dəvət ediləcəklər. Lakin bu zaman tələbələrin bu tapşırıqların yerinə yetirilməsi ilə bağlı istər müəllimin, istərsə də digər | 4 |

| | | |
|---|---|---|
| 9 | Mülki hüquq fundamental bir hüquq sahəsi olmaqla tərəflərin hüquq bərabərliyi, əmlak müstəqilliyi və iradə sərbəstliyi əsasında əmlak, əmlakla əlaqədar olan şəxsi qeyri əmlak və əmlakla əlaqədar olmayan şəxsi qeyri əmlak münasibətlərini tənzimləyən hüquq normalarının məcmusudur. Bu zaman mülki hüquq münasibətləri, mülki hüququn mənbələri, fiziki və hüquqi şəxslər, mülki hüquqi əqdlər, mülki hüquqların həyata keçirilməsi və vəzifələrin icrası, subyektiv mülki hüquqların müdafiəsi, mülki hüquqi məsuliyyət, mülki hüquqla tənzimlənən şəxsi qeyri əmlak hüquqları, mülkiyyət hüququ və onun növləri və müdafiəsi, məhdud əşya hüquqları, öhdəliklər və öhdəlik hüququ, mülki hüquqi müqavilələrin ayrı-ayrı növləri, alqı satqı müqaviləsi, dəyişdirmə,bağışlama və renta müqavilələri, əmlak kirayə, icarə, lizinq və suda müqavilələri, yaşayış sahələrindən istifadə üzrə öhdəliklər, podrat müqaviləsi, tikintidə podrat, layihə və axtarış işlərinin yerinə yetirilməsi üzrə müqavilələr, nəqliyyat müqavilələri, saxlama müqaviləsi, hüquqi xidmət göstərilməsi üzrə müqavilələr, sığorta öhdəlikləri, borc, kredir və pul tələbinin güzəştləri ilə maliyyələşdirmə müqavilələri, bank xidməti sahəsində müqavilələr, çoxtərəfli və birtərəfli əqdlərdən əmələ gələn öhdəliklər, zərər vurmaq nəticəsində əmələ gələn öhdəliklər, əsassız varlanmadan əmələ gələn öhdəliklər, müəlliflik hüququ və onunla əlaqədar hüquqlar patent hüququ, vərəsəliklə əlaqədar məsələlər və s. öyrənilir. | |
| 10 | **Cinayət hüququ**<br>Cinayət hüququ hüququn müstəqil bir sahəsi kimi mövcud ictimai münasibətlər sistemi üçün təhlükəli əməllərin cinayət olmasını və cəzalandırılmasını, həmçinin cinayət məsuliyyəti və ondan azad etməni müəyyən edən, ali hakimiyyət orqanları tərəfindən təsbit edilən hüquq normalarının məcmusudur. Cinayət hüququ cinayət qanunvericiliyinin hazırlanmasında, onun praktikada tətbiq olunmasında, dövlətin cinayətkarlığa qarşı mübarizə siyasətinin həyata keçirilməsində hüqüqşünaslıq ixtiası uzrə təhsil alan tələbələrə həm nəzəri, həm də praktiki cəhətdən gələcəkdə qanunların keşiyində duracaq orqanların işçisi kimi onların fəaliyyətini isiqamətləndirir. Cinayət hüququ cinayət qanunvericiliyini praktikada düzgün tətbiq etməyə əsas verir. Burada cinayət hüququnun anlayışı, funksiyası, vəzifələri, prinsipləri, cinayət qanunu, cinayətin anlayışı, cinayət məsuliyyətin və cinayət tərkibi, əməlin cinayət olmasını aradan qaldıran hallar, cəzanın anlayışı və məqsədi, sistemi, cəza təyin etmə, cinayət məsuliyyətindən azad etmə, cəzadan azad | 16 |

| | | |
|---|---|---|
| | etmə, cinayətlərin tövsifi, o cümlədən ayrı-ayrı cinayətlərin səciyyəsi və tövsifi məsələləri və s. öyrənilir. | |
| 11 | **Beynəlxalq ümumi hüquq**<br>Dövlətlər və beynəlxalq hüququn digər subyektləri arasında yaranan münasibətləri tənzim edən beynəlxalq ümumi hüquq çərçivəsində beynəlxalq münasibətlərin beynəlxalq-hüquqi tənzimlənməsi xüsusiyyətləri, beynəlxalq hüququn subyektləri və mənbələri, beynəlxalq müqavilələr hüququ, beynəlxalq hüququn prinsipləri, beynəlxalq və milli hüququn qarşılıqlı nisbət məsələləri, beynəlxalq hüquqda məsuliyyət, beynəlxalq mübahisələrin dinc yolla həll edilməsi, beynəlxalq təşkilatlar hüququ, xarici əlaqələr hüququ, beynəlxalq hüquqda ərazi, beynəlxalq dəniz hüququ, beynəlxalq hava hüququ, beynəlxalq kosmos hüququ, beynəlxalq iqtisadi hüquq, beynəlxalq ekologiya hüququ, beynəlxalq humanitar hüquq, beynəlxalq cinayət hüququ və beynəlxalq hüququn digər sahələri öyrənilir. Beynəlxalq hüququn hər bir sahəsinin əsas xüsusiyyətlərinin və elementlərinin təhlili Azərbaycan Respublikası milli qanunvericiliyinin təkmilləşdirilməsi nöqteyi-nəzərindən çox əhəmiyyətlidir. | 8 |
| 12 | **İnsan hüquqları**<br>Şəxsiyyət varlığının azadlığını ifadə edərək, onun həyatının, o cümlədən cəmiyyət, dövlət və digər fərdlərlə qarşılıqlı münasibətlərinin ayrılmaz və zəruri vasitəsi kimi çıxış edən insan hüquqları çərçivəsində bu istiqamədə müdafiənin əsas xüsusiyyətləri və prinsipləri, ayrı-ayrı insan hüquq və azadlıqlarının ümumi səciyyəsi və müdafiəsi məsələləri, ayrı-ayrı qrupların hüquqlarının müdafiəsi, o cümlədən ayrı-ayrı sahələrdə insan hüquqlarının müdafiəsi xüsusiyyətləri, insan hüquqları sahəsində mühüm beynəlxalq müqavilələrin və beynəlxalq məhkəmə presedntlərinin milli hüquqi tətbiqetmə üçün xüsusiyyətləri və əhəmiyyəti, insan hüquqlarının müdafiəsinin beynəlxalq və milli mexanizmləri, əhalinin ayrı-ayrı kateqoriyalıarının hüquqi vəziyyəti ilə əlaqədar məsələlər və s. öyrənilir. | 5 |
| 13 | **İnzibati hüquq**<br>İnzibati hüquq dedikdə, icra hakimiyyəti orqanlarının təşkili, habelə bu orqanların idarəçilik, icra və sərəncam fəaliyyəti prosesində əmələ gələn ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Fənnin öyrənilməsinin əsas məqsədini hüquqşünaslıq ixtisası üzrə təhsil alan universitet tələbələrində inzibati hüquq normaları və dövlət idarəetməsi haqqında ilkin təəssürat yaratmaq, inzibati hüquq | 5 |

| | | |
|---|---|---|
| | münasibətlərinin nəzəri əsasları, inzibati hüquqi nizamasalmanın obyektləri, dövlət, cəmiyyət və şəxsiyyət arasındakı inzibati hüquq münasibətlərinin əsasları, dövlət idarəetməsinin əsasları, fiziki şəxslərin və vətəndaşların ictimai birliklərinin inzibati-hüquqi statusu, onların inzibati-hüquqi təminatları və müdafiə mexanizmləri, habelə dövlət hakimiyyəti və yerli özünüidarə orqanları, onların hüquqi statusu, icra hakimiyyətinin forma və metodları, icra hakimiyyətinin hüquqi aktları, dövlət qulluğunun inzibati-hüquqi nizamlanması və dövlət qulluqçularının inzibati-hüquqi statusu, dövlət idarəetməsində məsuliyyət, inzibati xəta və inzibati tənbeh, müxtəlif sahələrdə dövlət idarəetməsi haqqında fundamental biliklərə yiyələnməsinə nail olmaq və s. təşkil edir. | |
| 14 | **Əmək hüququ**<br>Əmək hüququnun predmetini əmək münasibətləri və onlarla bilavasitə sıx bağlı olan münasibətlər, başqa sözlə desək, əmək münasibətlərindən törəmə münasibətlər təşkil edir. Bu fənn çərçivəsində əmək münasibətləri, əmək hüququnun mənbələri və prinsipləri, kollektiv müqavilə və sazişlər, məşğulluğun və işədüzəltmənin hüquqi tənzimlənməsi, əmək müqaviləsi, iş və istirahət vaxtı, əmək haqqı, əmək və icra intizamı, işəgötürənin və işçinin qarşılıqlı maddi məsuliyyəti, əmək mübahisələri, məzuniyyətlər, sosial təminat, əməyin mühafizəsi və s. kimi mühüm məsələlər öyrənilir. | 6 |
| 15 | **Maliyyə hüququ**<br>Maliyyə hüququ – ictimai inkişafın müasir dövründə dövlətin vəzifə və funksiyalarının həyata keçirilməsinin təmin olunması üçün maliyyə fəaliyyəti prosesində meydana çıxan ictimai münasibətləri nizama salan hüquq normaları məcmusudur. Dövlətin maliyyə fəaliyyətinin məzmununu təşkil edən maliyyə hüquq münasibətləri müxtəlif sahələrdə, o cümlədən, büdcə və büdcədənkənar məqsədli fondların təşkili və icra olunması, vergi, pul dövriyyəsi, valyuta tənzimi, bank kreditləşdirilməsi, dövlət xərcləri, dövlətin daxili borcları, dövlət sığortası, qiymətli kağızların maliyyə–hüquqi tənzimi, hesablaşma sahələrində yaranır. | 4 |
| 16 | **Kommersiya hüququ**<br>Kommersiya hüququ sahibkarlar arasındakı mülki hüquqi münasibətləri, o cümlədən kommersiya təşkilatlarını, sahibkar olmağın hüquqi nəticələrini, sənaye mülkiyyəti hüquqlarını, rəqabət münasibətlərini və bənzər institutları tənzimləyən ümumi məcburi normaların məcmusudur. Bu zaman sahibkarlıq fəaliyyəti və sahibkar anlayışları, kommersiya təşkilatlarının əsas xüsusiyyətləri, məhdud məsuliyyətli cəmiyyətinin və | 4 |

| | | |
|---|---|---|
| | səhmdar cəmiyyətinin hüquqi tənzimlənməsi, sahibkarın hüquq və vəzifələri, kommersiya təmsilçisi, ticarət agentinin hüquqi tənzimlənməsi, rəqabət münasibətlərinin hüquqi tənzimlənməsi və s. məsələlər öyrənilir. | |
| 17 | **Avropa hüququ**<br>Avropa hüququ Avropa İttifaqı çərçivəsində yaranan ictimai münasibətləri tənzimləyən xüsusi hüquq sistemidir. Bu fənn çərçivəsində Avropa hüququnun mənbələri və prinsipləri, Avropa hüququnun institusional mexanizmi, Avropa hüququnda məsuliyyət və mübahisələrin həlli, Avropa gömrük hüququ, Avropa ticarət hüququ, Avropa vergi hüququ, Avropa maliyyə hüququ, Avropa bank hüququ, Avropa korporativ hüququ, Avropa daxili bazar hüququ, Avropa rəqabət hüququ, Avropa enerji hüququ, Avropa cinayət hüququ, Avropa ekologiya hüququ, Avropa insan haqları hüququ, Avropa əqli mülkiyyət hüququ, Avropa əmək və sosial təminat hüququ, Avropa sığorta hüququ və s. ilə əlaqədar məsələlər öyrənilir. Azərbaycan Respublikasının Avropaya inteqrasiyası istiqamətində Avropa standartlarının öyrənilməsi çox önəmlidir. | 4 |
| 18 | **Beynəlxalq xüsusi hüquq**<br>Beynəlxalq xüsusi hüquq beynəlxalq sferada yaranan xüsusi münasibətləri (mülki, ailə, əmək, mülki prosessual və s.) tənzimləyən hüquq normalarının sistemidir. Bu fənn çərçivəsində beynəlxalq xüsusi hüquqda tənzimetmə, kolliziya normasının hüquqi təbiəti və sistemi, beynəlxalq məhkəmə aidiyyatı, beynəlxalq xüsusi hüquq normalarının tətbiqi, beynəlxalq xüsusi hüquqda əşya huquqları, beynəlxalq xüsusi hüquqda öhdəlik münasibətləri, beynəlxalq xüsusi nəqliyyat hüququ, beynəlxalq xüsusi hüquqda vərəsəlik, beynəlxalq xüsusi hüquqda ailə münasibətləri, beynəlxalq əqli mülkiyyət huququ, beynəlxalq xüsusi əmək hüququ, beynəlxalq ticarət arbitraj, beynəlxalq xüsusi hüquqda hüquqi yardım məsələləri və s. öyrədilir. | 4 |
| 19 | **Mülki-prosessual hüquq**<br>Mülki prossesual hüquq məhkəmə ilə məhkəmə icraatının digər iştirakçıları arasında mülki işlər üzrə ədalət mühakiməsinin həyata keçirilməsi, habelə məhkəmə icraatının mərhələlərindən biri olan məhkəmə qərarlarının icrası gedişində yaranan ictimai münasibətləri nizama salan hüquq normalarının məcmusudur. Bu zaman məhkəmə baxışının prinsipləri, mülki prosesin iştirakçıları, nümayəndilik, məhkəmə aidiyyəti, iddia, sübutetmə vasitələri, mülki prosesin mərhələləri, məhkəmə qərarları, işin yuxarı instansiyaya keçirilməsi, xaricilərin mülki prosessual hüquqları, xarici məhkəmələrin qərarlarının icrası məsələləri və s. öyrənilir. | 8 |

| | | |
|---|---|---|
| 20 | **Cinayət-prosessual hüquq**<br>Cinayət-prosessual hüquq cinayət təqibi üzrə ədalət mühakiməsinin vəzifələrinin yerinə yetirilməsinə yönəlmiş demokratik prinsiplər əsasında, qanunla müəyyən edilmiş prosessual formada həyata keçirilən, səlahiyyətli subyektlər tərəfindən cinayət təqibinin başlanılması, ibtidai araşdırılması, məhkəmədə baxılması və həll edilməsi üzrə fəaliyyətdir. Cinayət-prosessual hüquq fənni tələbələrə cinayət prosesinin mahiyyəti və cinayətkarlıqla mübarizədə onun rolu, cinayət prosesinin mərhələləri, cinayət-prosessual funksiyalar, cinayət-prosessual hüquq münasibətləri, prosessual forma və onun təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanları üçün əhəmiyyəti, prosessual təminatlar, onların növləri və əhəmiyyəti, cinayət-prosessual hüquq elmi, cinayət-prosessual fəaliyyət, cinayət - prosessual aktlar, onların növləri və əhəmiyyəti, cinayət-prosessual hüququn hüquq elmləri sistemində yeri, cinayət prosesinin tarixi formaları, cinayət prosesinin prinsipləri, cinayət təqibinin anlayışı, mahiyyəti və növləri, məhkəmə və cinayət prosesinin iştirakçıları, sübutlar və sübutetmə, cinayət prosesində prosessual məcburiyyət tədbirləri, cinayət mühakimə icraatında əmlak məsələləri, cinayət mühakimə icraatı zamanı konfidensiallıq və müddət məsələləri haqqında biliklər aşılayır. Daha sonra, fənnin köməkliyi ilə cinayət işi başlama, ibtidai araşdırma, birinci instansiya məhkəməsinin hazırlıq iclası, məhkəmə baxışı, hökmün icraya yönəldilməsi, apellyasiya, kassasiya, əlavə kassasiya qaydasında icraatlar, bəzi kateqoriyalı şəxslər barəsində icraatın xüsusiyyətləri barədə və s. biliklər əldə edilir. | 10 |
| 21 | **İnzibati-prosessual hüquq**<br>İnzibati-prosessual hüquq dedikdə, inzibati hüquq münasibətləri ilə bağlı mübahisələrin məhkəmə aidiyyətini, həmin mübahisələrə məhkəmədə baxılmasının və həll edilməsinin prosessual prinsiplərini və qaydalarını, inzibati mübahisələrə dair işlərə məhkəmədə baxılması ilə əlaqədar yaranan prosessual hüquq münasibətlərini tənzimləyən inzibati prosessual hüquq normalarının məcmusu başa düşülür. Fənnin öyrənilməsinin əsas məqsədini hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrdə inzibati prosessual hüquq normaları və institutları haqqında ilkin təəssürat yaratmaq, inzibati-prosessual hüququn inkişaf tarixi və nəzəri əsasları, prosessual nizamasalmanın obyektləri, inzibati mübahisələrə dair işlər üzrə məhkəmə icraatının hüquqi əsasları və prinsipləri, inzibati məhkəmələr və inzibati kollegiyalar, məhkəmə aidiyyatı, inzibati məhkəmə icraatı qaydasında | 4 |

| | | |
|---|---|---|
| | baxılan iddialar, məhkəmə qərarının qəbul edilməsi qaydası, iş üzrə icraatın dayandırılması, prosessual müddətlər, inzibati məhkəmə icraatında iddiaların növləri, məhkəmə tərəfindən tətbiq edilən müvəqqəti xarakterli müdafiə tədbirləri, birinci instansiya və apellyasiya instansiyaları məhkəmələrində, kassasiya instansiyası məhkəməsində icraat, yeni açılmış hallar üzrə icraat, prosessual xərclər və onların ödənilməsi qaydası, məhkəmə qərarları və onların icrası haqqında biliklərə və s. yiyələnməsinə nail olmaq təşkil edir. | |
| 22 | **Mülki müdafiə**<br>Fənn çərçivəsində fövqəladə halların qarşısının alınması və aradan qaldırılması üçün vahid dövlət sistemi, təbii fəlakətlər zamanı təhlükəsizliyin təmin edilməsində vətəndaşların hüquq və vəzifələri, fərdi və kollektiv müdafiə prinsipləri, qəza-xilasetmə və digər təxirəsalınmaz işlər, ilk tibbi yardımın göstərilməsi, təcili təxliyyə və bərpa tədbirləri, təhsil sahəsində mülki müdafiə tədbirləri təşkil etmək kimi məsələlər tədris olunur. | 3 |
| ... | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər**[1]<br>Burada olan fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada müəyyən edilir və həmin ixtisasın tədris planında əksini tapır. | 60 |
| | **Təcrübə** | 30 |
| | **Cəmi** | 240 |

## 4. Tədris və öyrənmə

4.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

4.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır.

4.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

4.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq

[1] Bu fənlər professor-müəllim heyətinin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən təklif edilir. Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər tələbələr üçün seçmə xarakteri daşımalı, eləcə də tələbələrin xarici mübadilə proqramlarında iştirakına şərait yaratmalıdır.

etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:

- mühazirə, seminarlar, praktiki tapşırıqlar;
- təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil iş/araşdırma (məsələn, praktiki nümunələrlə iş);
- layihələr;
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- rol oyunları;
- hesabatlar;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;
- distant təhsil;
- simulyasiyalar;
- və s.

***Qeyd:*** *sadalanan metodlar ixtisasın spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

4.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yetirilməlidir.

4.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 5. Qiymətləndirmə

5.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir.

5.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.).

5.3. Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

5.4. Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:

- yazılı tapşırıqlar;
- bilik və bacarıqlara dair testlər, kompyuter əsaslı testlər;
- şifahi təqdimatlar;
- sorğular;
- açıq müzakirələr;
- praktika hesabatları, sahə işləri hesabatları;
- praktikada, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
- layihə işlərinə dair hesabatlar;
- portfolionun qiymətləndirilməsi;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə;
- və s.

***Qeyd:*** *sadalanan üsullar fənnin spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

5.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

5.6. Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi müvafiq qaydalara uyğun olaraq qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

5.7. Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, plagiarizm problemini anlamaq öyrədilir. Onlar intellektual əməyin əqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

## 6. Proqramın və hər bir fənnin təlim nəticələri

6.1. Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

6.2. Təlim nəticələri hər bir ali təhsil müəssisəsi tərəfindən Əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

6.3. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 7. İnfrastruktur və kadr potensialı

7.1. **"050206 Hüquqşünaslıq"** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

7.2. Ali təhsil müəssisələrinin professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Digər dövlət, yaxud özəl müəssisələrdən və/və ya digər müvafiq təşkilatlardan gələn yüksək ixtisaslı mütəxəssislər, həmçinin müvafiq ixtisas qrupu üzrə minimum magistr dərəcəsinə sahib olan şəxslər də tədrisə cəlb oluna bilərlər.

## 8. Təcrübə

8.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir. İxtisasın xüsusiyyətlərindən asılı olaraq təcrübənin təşkili qayadaları ali təhsil müəssisəsi tərəfindən müəyyən oluna bilər.

8.2. Təcrübə özəl şirkətdə, dövlət müəssisəsində, tədqiqat laboratoriyasında (eləcə də universitet, AMEA, yerli, yaxud beynəlxalq özəl təşkilat və şirkətlərdə və s.) təşkil oluna bilər.

8.3. Təcrübə prosesindən maksimal fayda əldə etmək məqsədilə tələbələr ilkin hazırlıq prosesinə cəlb edilməli (karyera palanlanması) və onların müvafiq bacarıqları (yumşaq və sərt bacarıqlar) fromalaşdırılmalıdır.

8.4. Təcrübənin təşkili ali təhsil müəssisəsinin vəzifəsidir. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq qurum arasında müqavilə imzalanmalıdır. Müqavilədə təcrübənin keçirilmə şərtləri, tələbələrin hüquq və vəzifələri və digər zəruri təfərrüatlar əks olunur. Təcrübəni təşkili iki formada təklif olunacaqdır. İmzalanmış

müqaviləyə uyğun olaraq, tələbələr müvafiq şirkət və qurumlarda təcrübə imkanlarını araşdıracaq və müsbət dəyərləndirilən tələbələr qarşı tərəfin razılıq sənədlərini universitetə təqdim edəcəkdir. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər qurumlarda, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir.

8.5. Təcrübənin təşkilinin ikinci forması isə, tələbələrin iş dünyasından daxil olan sifariş layihələrinin icra olunmasıdır. Belə ki, müxtəlif özəl və dövlət qurumlarında ehtiyac duyulan araşdırmalar, təkmilləşmə imkanları, problemlərə həll yolları tələbə və mentor müəllimlərin birgə fəaliyyəti ilə təhlil və tədqiq ediləcək və layihə şəklində sifarişçilərə təqdim ediləcəkdir.

8.6. Təcrübənin qiymətləndirilməsi təqdim olunmuş layihənin dəyərləndirilməsindən sonra iş dünyası nümayəndələri tərəfindən həyata keçiriləcəkir.

## 9. Məşğulluq və ömürboyu təhsil

9.1. **"050206 Hüquqşünaslıq"** ixtisası üzrə məzun olan tələbələr əsasən dövlət qurumlarında, yerli özünüidarəetmə orqanlarında və mülkiyyət formasından asılı olmayaraq müxtəlif müəssisələrdə hüquqşünas mütəxəssis/məsləhətçi olaraq fəaliyyət göstərə bilərlər. Bundan əlavə, məzunlar tabeliyindən asılı olmayaraq peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn istənilən sahədə, təşkilatda, idarədə, müəssisədə, birlikdə, qurumda, nazirlik və komitələrdə, həmçinin agentlikliklərdə və araşdırma/beyin mərkəzlərində mütəxəssis olaraq da çalışa bilərlər.

9.2. Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

*9.3.* **"050206 Hüquqşünaslıq"** ixtisası üzrə Təhsil Proqramının məzunları təhsillərini "Humanitar və sosial" ixtisaslar qrupuna daxil olan "060212 Hüquqşünaslıq", "060216 Dövlət və ictimai münasibətlər", "İqtisadiyyat və idarəetmə" ixtisasları qrupuna daxil olan "060404 İqtisadiyyat" (İqtisadiyyatın hüquqi tənzimlənməsi), "060410 Dövlət və bələdiyyə idarəetməsi"(bəzi ixtisaslar), "060805 Sosial iş"(bəzi ixtisaslar üzrə) Magistr proqramlarında davam etdirə bilərlər.

9.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini, Elm, ali və orta ixtisas təhsil şöbəsinin müdiri

_______________Yaqub Piriyev

"06" 08 2020-ci il

Humanitar və sosial ixtisaslar qrupu üzrə Dövlət Təhsil Proqramlarını hazırlayan işçi qrupun sədri

_______________Fariz İsmayılzadə

"05" avqust 2020-ci il

**Əlavə 1**

**Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri**

Ali təhsil müəssisəsi Təhsil Proqramı və hər fənn üzrə gözlənilən təlim nəticələrini müəyyən etməlidir. *Aşağıdakı cədvəllərdə ən azı 6 təlim nəticəsi sadalanmalıdır (Təhsil Proqramı və hər fənn üzrə ayrılıqda)*

| **Təhsil Proqramının təlim nəticələri (PTN)** |
|---|
| PTN 1 Yüksək yaradıcı və tənqidi təfəkkürə, vətənpərvərliyə, geniş erudisiyaya, sosial-siyasi məsuliyyətə, yazılı və şifahi nitq vərdişlərinə, liderlik qabiliyyətinə yiyələnir, xarici dildən sərbəst istifadə etməyi bacarır. |
| PTN 2 Hüququn əsas mahiyyəti, tənzimetmə xüsusiyyətləri, normativ tənzimetmə sistemində yeri, mənbələri, prinsipləri, realizəsi, təfsiri, tətbiqi və s. xüsusiyyətlərini, hüquq sistemləri arasındakı qarşılıqlı münasibətləri bilmək bacarığına malik olmalıdır. |
| PTN 3 Ölkədə həyata keçirilən hüquq siyasətini və müvafiq hüquqi islahatları bütün xüsusiyyətləri ilə bilmək və izah etmək, o cümlədən bu islahatların davamını proqnozlaşdırmaq bacarığına malik olmalıdır. |
| PTN 4 Hüquqi yazı və hüquqi təhlil bacarığına malik olmalıdır. |
| PTN 5 Hüquqi arqumentlər irəli sürmək, hüquqi problemləri müəyyən etmək, səmərəli hüquqi tədqiqat alətlərini öyrənmək, nəhayət özünün analitik və problemlərin həll edilməsi qabiliyyətlərini inkişaf etdirmək bacarığına malik olmalıdır. |
| PTN 6 Bu və ya digər dövrün hüquq sisteminin əsas cəhətləri və elementlərini mənimsəməklə baş vermiş dəyişikliklərin ictimai səbəblərini, tarixi varisliyin mahiyyətini dərindən dərk edərək, o cümlədən müasir dövrdə müsbət tarixi təcrübədən yararlanmaqla hər bir hüquq sahəsi üzrə təkmilləşdirilmə zərurətini əsaslandırmaq bacarığına malik olmalıdır. |
| PTN 7 Hər bir hüquq sahəsinin anlayışını, tənzim etdiyi münasibətlər dairəsini, mənbələrini, prinsiplərini, müvafiq yarımsahə və institutlarını ətraflı təhlil etmək, nəhayət bu sahədə təkmilləşdirmə üzrə təkliflər vermək bacarığına malik olmalıdır. |
| PTN 8 Normativ hüquqi aktların, o cümlədən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin qanunvericilik ierarxiyasında yerini müəyyən etmək, qanunvericilikdə mövcud olan kolliziyaların mahiyyətini aydınlaşdırmaq, hər bir istiqamətdə qanunvericiliyinin təhlilini aparmaq və müvafiq istiqamətlər üzrə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək bacarığına malik olmalıdır. |
| PTN 9 Hüquq, dövlət, şəxsiyyət və vətəndaş cəmiyyəti ilə əlaqədar qarşılıqlı məsələləri geniş təhlil edərək ayrı-ayrı insan hüquqlarının tətbiqi qaydalarını və onların məzmununu düzgün müəyyən etmək bacarığına malik olmalıdır. |
| PTN 10 Beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqələrinin əsas xüsusiyyətlərini, beynəlxalq təşkilatların və beynəlxalq müqavilələrin milli hüquqi tətbiqetmə üçün əhəmiyyətini bilmək, nəhayət beynəlxalq hüququn ayrı-ayrı sahələrinin əhəmiyyətindən və əsas xüsusiyyətlərindən istifadə etməklə, Azərbaycan Respublikası dövlətdaxili qanunverriciliyinin müxtəlif sferalarda inkişaf etdirilməsini əsaslandırmak bacarığına malik olmalıdır. |
| PTN 11 Azərbaycan dövlətinin sosial-hüquqi mahiyyətini və əsas xüsusiyyətlərini izah etmək, hakimiyyət qolları arasındakı əlaqələri düzgün qiymətləndirmək, nəhayət insan hüquqları |

| |
|---|
| sahəsində beynəlxalq və milli mexanizmlərin mahiyyətini və əsas istiqamətlərini bilməklə onların qarşılıqlı əlaqələrindən düzgün istifadə etmək bacarığına malik olmalıdır. |
| PTN 12 Hər bir sahədə müvafiq münasibətləri tənzim edən qanun layihələrini hazırlamaq, təklif olunan qanun layihələrinə rəy vermək bacarığına malik olmalıdır. |
| PTN 13 Hər bir sahədə əsas hüquqi sənədləri tərtib etmək bacarığına malik olmalıdır. |

## Fənn üzrə təlim nəticələri (FTN)

| **"Azərbaycan tarixi" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Azərbaycanın dünyanın ən qədim yaşayış məskənlərindən,ilk sivilizasiya məkanlarından biri olmasını müəyyən etməyi bacarır. |
| FTN 2 Azərbaycanın müxtəlif dövrlərdə dövlətçiliyinin təşəkküllü şəraitini, siyasi, beynəlxalq amilləri təhlil etməyi bacarır. |
| FTN 3 Azərbaycanda milli-dövlətin təşəkkülü, formalaşmasında ideoloji, iqtisadi və mədəni amillərin rolunu təhlil etməyi bacarır; azərbaycançılıq ideologiyasını dərk edir. |
| FTN 4 Müxtəlif dövrlərdə Azərbaycan dövlətçiliyinin zəifləməsinə təsir göstərmiş xarici və daxili amilləri təhlil etməyi və ümumiləşdirməyi bacarır. |
| FTN 5 Azərbaycan dövlətinin müasir dünyada yeri və rolunu sistemli şəkildə öyrənmək. |
| FTN 6 Azərbaycan tarixinin inkişafının tarixi təcrübəsindən düzgün nəticələr çıxarmağı bilmək. |
| FTN 7 Müasir mərhələdə Azərbaycan dövlətçiliyinin güclənməsini şərtləndirən amilləri, şəxsiyyətin rolunu təhlil və müəyyən etməyi bacarır. |

| **"Azərbaycan dilində işgüzar və akademik kommunikasiya"** fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Qloballaşma şəraitində Azərbaycan dili və ona göstərilən dövlət qayğısı ilə bağlı məlumatlara yiyələnmək. Dövlət dili haqqında fərman və sərəncamlar, "Ulu öndər Heydər Əliyev və Azərbaycan dili" mövzusunda təqdimatlar hazırlamağı öyrənmək; "Azərbaycan dilində işgüzar və akademik kommunikasıya" fənninin məqsəd və vəzifələrini bilmək. Kommunikasiyanın forma və funksiyaları, kommunikasiya səviyyələri barədə biliklərə sahib çıxmaq. |
| **FTN 2** Akademik kommunikasiya prosesində köməkçi nitq hissələrinin rolunun nədən ibarət olduğunu mənimsəmək; şifahi və yazılı kommunikasiyalar, habelə nitqə verilən tələblər: nitqin düzgünlüyü, dəqiqliyi, aydınlığı, səlisliyi, təmizliyi, yığcamlığı, sadəliyi, zənginliyi , rabitəliliyi və digər önəmli məsələlərin rolunu müasir tələblər səviyyəsində öyrənmək. |
| **FTN 3** Kommunikasiya ritorikasının nədən ibarət olduğunu, ədəbi dilin üslublarını, Azərbaycan ədəbi dilinin aktiv və passiv leksikasını bilmək. Ədəbi dil və kommunikativlik, kommunikativliyin növləri, kommunikativlikdə rabitə və kommunikativ strategiya və yaradıcılıq texnologiyalarını mənimsəmək. |

| |
|---|
| **FTN 4** Dinləmə mədəniyyəti və dinləmənin kommunikasiya növü kimi mahiyyətini öyrənmək. Dinləmə və diqqət, dinləmə formaları, dinləmə bacarıqlarının təkmilləşdirilməsinin önəmini qavramaq; kommunikasiya mədəniyyəti, danışıq etikası və müraciət etiketləri barədə məlumatlara yiyələnmək; təşkil olunmuş nitqin (mühazirə, məruzə, çıxış, spontan nitq) özünəməxsusluğunu bilmək; şifahi şəkildə işgüzar kommunikasiya yaratmaq. |
| **FTN 5** Müasir Azərbaycan dilinin işgüzar üslubu barədə məlumatları və qaydaları öyrənmək; İşgüzar kommunikasiyada məktubların rolu, elektron və onlayn kommunikasiyalar barədə biliklərini zənginləşdirmək; yazılı şəkildə işgüzar kommunikasiya yaratmaq. |
| **FTN 6** Rəsmi-işgüzar sənədləri dili barədə məlumatları öyrənmək; işgüzar kommunikasiyaların növləri və formaları, həmçinin dili və üslubu barədə məlumatlara yiyələnmək. İşgüzar kommunikasiyada Azərbaycan dilinin saflığının, orfoqrafiya qaydalarının və cümlə quruluşuna əməl olunmasının mahiyyətini öyrənmək. İşgüzar ritorika haqqında nəzəri və praktik çalışmalara sahib çıxmaq. |
| **FTN 7** Azərbaycan dilində ixtisas üzrə yazılı və şifahi təqdimatlar hazırlamağı bacarmaq. |

| **"Xarici dildə işgüzar və akademik kommunikasiya" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Yazılı və şifahi nitq prosesində xülasələşdirmək, parafraz etmək, sintez etmək kimi bacarıqlar nümayiş etdirmək. |
| FTN 2 Nisbətən mürəkkəb mətnləri oxuyub təhlil edə bilmək; dinlədiyi və oxuduğu mətnin (ixtisasına uyğun elmi, ictimai-siyasi və s.) icmalını təqdim edə bilmək. |
| FTN 3 Müəyyən edilmiş məqsədə uyğun yazı strategiyaları seçə bilmək; müxtəlif janrlarda yazı nümunələri nümayiş etdirmək; yazılı şəkildə işgüzar kommunikasiya yaratmağı bacarır. |
| FTN 4 Effektiv ünsiyyət yaratmaq üçün sual müdaxiləsi, empatik dinləmə, məlumatı dəqiqləşdirmə, məlumatı əlavə təfərrüatla zənginəşdirmə və s. kimi texnologiyalara yiyələnmək. |
| FTN 5 İxtisas sahəsi daxilində müzakirələrdə iştirak edə bilmək; şifahi şəkildə işgüzar kommunikasiya yaratmağı bacarır. |
| FTN 6 Öyrəndiyi dildə yazılı təqdimatlar hazırlamağı bacarır. |
| FTN 7 Konkret sual ətrafında rabitəli, məntiqli və adekvat şifahi və yazılı mətn formalaşdırmaq. |

| |
|---|
| **Hüquq nəzəriyyəsi** |
| FTN 1 Hüququn mənşəyi, anlayışı, mahiyyəti, funksiyaları, prinsipləri, hüquq münasibətləri, hüququn sosial normativ tənzimetmə sistemində yeri, hüquq və dövlət, hüquq və cəmiyyətin siyasi sistemi arasındakı qarşılıqlı münasibətləri düzgün müəyyən edir. |
| FTN 2 Hüququn mənbələri, hüquq normaları, normativ-hüquqi aktlar, hüquqyaratma, |

| |
|---|
| hüquqyaratma subyektlərinin səlahiyyətləri, hüququn sistemləşdirilməsi, hüquq sistemi, qanunvericilik sistemi anlayışlarını fərqləndirməklə onların məzmununu tam izah edir. |
| FTN 3 Hüququn realizəsi və təfsiri, hüquq tətbiqetmə prosesi, hüquq düşüncəsi və hüquq mədəniyyəti, hüquqi tənzimetmə mexanizmi haqqında geniş biliklər əldə edir. |
| FTN 4 Qanunçuluq və hüquq qaydası, hüquqauyğun davranış, hüquq pozuntusu, hüquq məsuliyyəti barədə əsas xüsusiyyətləri müəyyənləşdirməklə onları praktik tətbiq edir. |
| FTN 5 Hüquq, dövlət, şəxsiyyət və vətəndaş cəmiyyəti ilə əlaqədar qarşılıqlı məsələləri geniş təhlil edir, ölkədə həyata keçirilən hüquq siyasətini və müvafiq hüquqi islahatları bütün xüsusiyyətləri ilə dərk edir. |
| FTN 6 Müasir dövrün əsas hüquq sistemlərini bilməklə onlar arasındakı qarşılıqlı əlaqələri və tətbiqetmə xüsusiyyətlərini müəyyən edir. |
| **Hüquqi yazı** |
| FTN 1 Qanunları təhlil, təfsir və tətbiq etmək sahədə mühüm biliklər əldə edir. |
| FTN 2 Əsas hüquqi sənədləri tərtib edir. |
| FTN 3 Hüquqi arqumentlər irəli sürür, hüquqi problemləri müəyyən edir. |
| FTN 4 Səmərəli hüquqi tədqiqatları planlaşdırır, təşkil edir və aparır. |
| FTN 5 Obyektiv və inandırıcı üslubda hüquqi yazı vərdişlərini əldə edir. |
| FTN 6 Səmərəli təqiqat alətlərini öyrənir, analitik və problemlərin həll edilməsi qabiliyyətlərini inkişaf etdirir. |
| **Azərbaycanın hüquq tarixi** |
| FTN 1 Azərbaycan ərazisində hüququn təşəkkülü və inkişafının qanunauyğunluqlarını, tarixi-hüquqi inkişafın ayrı-ayrı faktlarını öyrənməklə konkret dövlətlərin qanunvericiliyi, hüquq institutları haqqında bilgiləri özündə cəmləşdirir. |
| FTN 2 Ölkəmizin ərazisində məskunlaşan əhali təbəqələrinin hüquqi məişətini və hüquq mədəniyyətini bilməklə müxtəlif dövrlərdə hüquq mənbələrinin meydana gəlmə şəraiti və səbəblərini düzgün qiymətləndirir. |
| FTN 3 Tarixi-hüquqi təcrübəni öyrənməklə tarixi faktlarla, müxtəlif hüquqi sənədlərlə, onların bizə gəlib çatmış surətləri ilə tanış olur və tarixi-hüquqi mətnləri müstəqil təhlil edir. |
| FTN 4 Hüquq hadisələrinə tarixi yanaşma vərdişləri və hüququn dərk edilməsinin elmi metodologiyası üzrə biliklər əldə edir. |
| FTN 5 Bu və ya digər dövrün hüquq sisteminin əsas cəhətləri və elementlərini mənimsəməklə baş vermiş dəyişikliklərin ictimai səbəblərini, tarixi varisliyin mahiyyətini dərindən dərk edir. |
| FTN 6 Hüquq mənbələri və onların əks olunduğu hüquq abidələrinin məzmununu, mühüm hüquq sahələri üzrə ayrı-ayrı institutların tarixi xüsusiyyətlərini bilməklə müasir dövrdə müsbət tarixi təcrübədən yararlanmaqla bu və ya digər hüquq institutunun təkmilləşdirilməsi zərurətini əsaslandırır. |
| **Konstitusiya hüququ** |
| FTN 1 Konstitusiya hüququnun hüququn aparıcı sahəsi olmasının mahiyyətini əsaslandırır, konstitusiya hüququna dair əsas anlayışlardan istifadə edir. |
| FTN 2 Normativ hüquqi aktların, o cümlədən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin qanunvericilik ierarxiyasında yerini müəyyən edir, kostitusiya |

| |
|---|
| qanunvericiliyində mövcud olan kolliziyaların mahiyyətini aydınlaşdırır, kostitusiya qanunvericiliyinin təhlilini aparır və müvafiq istiqamətlər üzrə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində təkliflər verir. |
| FTN 3 Azərbaycan dövlətinin sosial-hüquqi mahiyyətini və əsas xüsusiyyətlərini izah edir. |
| FTN 4 Seçki hüququna dair təhlil aparır, seçkilər zamanı seçki prosesini idarə və seçki qanunvericiliyini tətbiq edir. |
| FTN 5 İcra hakimiyyəti mexanizmində konkret icra hakimiyyəti orqanının yerini müəyyən edir, icra hakimiyyəti orqanını idarəçilik sahəsində dövləti funksiyanı yerinə yetirən publik hüquqi şəxslərdən fərqləndirir. |
| FTN 6 Konstitusiya və ya xüsusi icraat qaydasında Konstitusiya Məhkəməsinə sorğu və ya fərdi şikayətlər hazırlayır. |
| **Mülki hüquq** |
| FTN 1 Mülki hüququn tənzim etdiyi ictimai münasibətləri digər hüquq sahələri ilə tənzim olunan ictimai münasibətlərdən fərqləndirir, onun əsas xüsusiyyətlərini, mənbələrini və prinsiplərini izah edir. |
| FTN 2 Fiziki şəxslərin hüquq və fəaliyyət qabiliyyəti anlayışını izah edir, hüquqi şəxslərin müxtəlif meyarlara görə təsnifatını aparmaq vərdişlərinə yiyələnir. |
| FTN 3 Öhdəliklərin icrasının təmini üsullarını təhlil edir. |
| FTN 4 Əmlakın mülkiyyətə, istifadəyə verilməsi, işlərin yerinə yetirilməsi və xidmətlərin göstərilməsi üzrə müqavilələrin ayrı ayrı növlərini bilməklə, bu müqavilələrin elementlərini, onların bağlanması qaydasını və xitamı əsaslarını praktik hallarla izah edir. |
| FTN 5 Müqavilədənkənar öhdəliklərin ayrı ayrı növlərini təhlil etmək vərdişlərinə yiyələnir, müəlliflik hüuqunun və patent hüququnun subyekt və obyektlərini təhlil edir, qanun üzrə və vəsiyyət üzrə vərəsəliyi fərqləndirir, mirasın rəsmiləşdirilməsi qaydasını bilir, nəzəri və təcrübi biliklərə malik olmaqla yanaşı praktik fəaliyyətdə onlardan istifadə edir. |
| FTN 6 Nikahla əlaqədar münasibətlər, o cümlədən ailə üzvləri, eləcə də ailə qanunvericiliyində nəzərdə tutulmuş hallarda və həddə başqa qohumlar və digər şəxslər arasında yaranan əmlak və şəxsi qeyri-əmlak münasibətlərinin tənzimlənməsi qaydalarını və s. bilməklə bu sahədəki mübahisələri həll edir. |
| **Cinayət hüququ** |
| FTN 1 Cinayət hüququnun mahiyyətini, sistemini, vəzifələrini, prinsiplərini, cinayət qanununun anlayışını, məkana və zamana görə qüvvəsini, ictimai təhlükəli əməllərin əlamətlərini və sistemini öyrənir. |
| FTN 2 Cinayət anlayışını, cinayət tərkibini və əlamətlərini ətraflı öyrənməklə onları düzgün müəyyən edir və fərqləndirir. |
| FTN 3 Cinayət məsuliyyətinin əsaslarını dəqiq müəyyən edir. |
| FTN 4 Cəza sistemini və ayrı-ayrı cəza növlərinin təyin olunma qaydalarını, o cümlədən şərtlərini müəyyən edir. |
| FTN 5 Cinayət məsuliyyətindən və cəzadan azad olunma şərtlərini öyrənməklə onları konkret praktik hallarla düzgün tətbiq edir. |
| FTN 6 Ayrı-ayrı cinayətlərin əlamətlərini və tövsif qaydalarını bilməklə praktik hallarda onları |

| |
|---|
| düzgün müəyyən edir. |
| **Beynəlxalq ümumi hüquq** |
| FTN 1 Beynəlxalq hüququn mahiyyətini və fəaliyyət istiqamətlərini bilməklə beynəlxalq münasibətlərin tənzimlənməsi qaydalarından, mənbələrindən, prinsiplərindən istifadə edir. |
| FTN 2 Beynəlxalq müqavilələrin mahiyyətini və əsas elementlərini bilməklə dövlətlərarası münasibətlərin tənzimlənməsində onların zəruri rolunu əsaslandırır. |
| FTN 3 Beynəlxalq hüququn əsas prinsiplərini, o cümlədən beynəlxalq hüquq normalarının məzmununu bilməklə onların əhəmiyyətini qiymətləndirir. |
| FTN 4 Beynəlxalq təşkilatların beynəxalq və milli hüquqi tənzimetmə üçün vacib əhəmiyyətini əsaslandırır. |
| FTN 5 Beynəlxalq hüququn ayrı-ayrı sahələrinin ayrılıqda əsas xüsusiyyətlərini və fəaliyyət istiqamətlərini geniş məzmunda təhlil edir. |
| FTN 6 Beynəlxalq hüququn ayrı-ayrı sahələrinin əhəmiyyətindən və əsas xüsusiyyətlərindən istifadə etməklə, Azərbaycan Respublikası dövlətdaxili qanunverriciliyinin müxtəlif sferalarda inkişaf etdirilməsini əsaslandırır. |
| **İnsan hüquqları** |
| FTN 1 İnsan hüquqlarının əsas xüsusiyyətlərindən və istiqamətlərindən hüququn hər bir sahəsinin inkişaf etdirilməsində düzgün istifadə edir. |
| FTN 2 Ayrı-ayrı insan hüquqlarının tətbiqi qaydalarını və onların məzmununu müəyyən edir. |
| FTN 3 Ayrı-ayrı qrupların insan hüquqlarının müdafiəsi qaydalarının və xüsusiyyətlərinin tətbiqini həyata keçirir, o cümlədən ayrı-ayrı sahələrdə insan hüquqlarının müdafiəsi qaydalarını və xüsusiyyətlərini tətbiq edir. |
| FTN 4 İnsan hüquqları sahəsində beynəlxalq və milli mexanizmlərin mahiyyətini və əsas istiqaməıtlərini bilməklə onların qarşılıqlı əlaqələrindən düzgün istifadə edir. |
| FTN 5 İnsan hüquqları sahəsində beynəlxalq müqavilə normalarından milli hüquqi tətbiqetmədə lazımi qaydada istifadə edir, nəhayət, beynəlxalq məhkəmə qərarlarının və Avropa Məhkəməsi presedent hüququnun əhəmiyyətini qiymətləndirir, onlardan istifadə qaydalarını əsaslandırır. |
| FTN 6 Əhalinin ayrı-ayrı kateqoriyalarının hüquqi vəziyyətini ətraflı öyrənməklə onların hüquqlarının müdafiəsi qaydalarını tətbiq edir. |
| **İnzibati hüquq** |
| FTN 1 İnzibati hüquqa dair əsas anlayışlardan istifadə edir, inzibati-hüquqi qanunvericiliyin təhlilini aparır, icra hakimiyyəti aktlarının hüquqi qüvvəsini və əhəmiyyətini müəyyən edir, inzibati-hüquqi qanunvericilikdə mövcud olan kolliziyaların mahiyyətini aydınlaşdırır. |
| FTN 2 Azərbaycan Respublikasında dövlət idarəetməsi və yerli özünüidarəetmənin mahiyyətini və əsas xüsusiyyətlərini izah edir. |
| FTN 3 Vətəndaşların ictimai birliklərinin inzibati-hüquqi statusuna dair təhlil aparır, inzibati-hüquqi təminatları və müdafiə mexanizmlərini müəyyən edir, mövcud normativ bazanı tətbiq edir. |
| FTN 4 İnzibati hüquq sahəsindəki məsələləri tənzim edən qanun layihələrini hazırlayır, təklif olunan qanun layihələrinə rəy verir. |
| FTN 5 İcra hakimiyyəti mexanizmində konkret icra hakimiyyəti orqanının yerini müəyyən edir, |

| |
|---|
| icra hakimiyyəti orqanını idarəçilik sahəsində dövləti funksiyanı yerinə yetirən publik hüquqi şəxslərdən, o cümlədən yerli idarə və yerli özünüidarəni bir birindən fərqləndirir. |
| FTN 6 Vətəndaşların müraciətləri haqqında qanunvericilik normalarına uyğun olaraq ərizə, təklif və şikayətlər hazırlayır. |
| **Əmək hüququ** |
| FTN 1 Əmək hüququnun mahiyyəti, mənbələri, prinsiplərini ətraflı bilməklə işçilərlə işəgötürənlər arasında yaranan əmək münasibətlərini, habelə onlarla müvafiq dövlət hakimiyyəti orqanları, hüquqi şəxslər arasında həmin münasibətlərdən törəyən digər hüquq münasibətlərini fərqləndirir və tənzimlənməsi xüsusiyyətlərini müəyyən edir. |
| FTN 2 Əmək qanunvericiliyi normalarının tətbiq edilməsi, o cümlədən bu sferada beynəlxalq-hüquqi aktların tətbiqinin əsas xüsusiyyətlərini və əhəmiyyətini izah edir. |
| FTN 3 Kollektiv müqavilənin bağlanılması qaydalarını praktik hallarla təhlil edir. |
| FTN 4 Əmək müqavilənin bağlanılması, dəyişdirilməsi və xitamı qaydalarını praktik hallarla düzgün tətbiq edir. |
| FTN 5 İşçilərin hüquq və vəzifələrini, onların əmək hüquqlarının müdafiəsinin formalarını və əsas elementlərini müəyyən edir, o cümlədən əmək mübahisələri və məsuliyyət məsələlərini həll edir. |
| FTN 6 Əmək haqqı, iş vaxtı, istirahət hüququ, məzuniyyətlər, sosial təminat və əməyin mühafizəsi münasibətlərini öyrənməklə praktik hallara onları tətbiq edir. |
| **Maliyyə hüququ** |
| FTN 1 Maliyyə hüququn tənzim etdiyi ictimai münasibətləri digər hüquq sahələri ilə tənzim olunan ictimai münasibətlərdən fərqləndirir, onun əsas xüsusiyyətlərini, mənbələrini və prinsiplərini izah edir. |
| FTN 2 Dövlətin və bələdiyyələrin həyata keçirdiyi büdcə fəaliyyətinin məzmununu təhlil edir. Büdcədənkənar məqsədli fondların mənbələri, xərcləri, təşkili və icra olunması qaydalarını bilir, onları praktik hallarla əsas xüsusiyyətləri ilə tətbiq edir. |
| FTN 3 Vergi işinin məzmununu və Azərbaycan Respublikasının vergi siyasətinin əsas istiqamətlərini öyrənir. |
| FTN 4 Dövlətin pul dövriyyəsi və pul emissiyası qaydalarını, dövlət xərclərinin əsaslarını, dövlətin valyuta siyasətinin əsas istiqamətlərini təhlil edir. |
| FTN 5 Dövlətin daxili borclarının tərkibini və xüsusiyyətlərini müəyyən edir. |
| FTN 6 Hesablaşma qaydalarını və digər bilikləri əldə edir. |
| **Kommersiya hüququ** |
| FTN 1 Kommersiya hüququ ilə tənzim edilən münasibətlər dairəsini bilməklə sahibkarlıq fəaliyyəti və sahibkar anlayışını öyrənir, bu istiqamətdə əsas xüsusiyyətləri müəyyən edir. |
| FTN 2 Kommersiya təşkilatlarının mahiyyəti, hüquq qabiliyyəti, idarəetmə orqanları, struktur bölmələri, filial, nümayəndəlik, idarə, bu təşkilatların ləğvi və yenidən təşkili kimi əsas məsələləri öyrənir. |
| FTN 3 Məhdud məsuliyyətli cəmiyyətin mahiyyəti, təsis olunması, iştirakçıları, nizamnaməsi, nizamnamə kapitalı, mənfəətin bölüşdürülməsi, idarə edilməsi, payın verilməsi kimi mövzuları |

| |
|---|
| tədqiq edir. |
| FTN 4 Səhmdar cəmiyyətinin mahiyyəti, təsis olunması, nizamnaməsi, nizamnamə kapitalı, səhmdarları, cəmiyyətin mənfəəti və dividendlərin bölüşdürülməsi, idarə edilməsi, səhmlərin verilməsi kimi əsas məsələləri müəyyən edir və müxtəlif sfearalarda tətbiq edir. |
| FTN 5 Sahibkarın iflası, sahibkarın kommersiya reyestrində qeydiyyatı, kommersiya məhkəmələrində mübahisələrə baxılmasının xüsusiyyətləri, sahibkarın vergi və lisenziya sahəsindəki hüquq və vəzifələrini ətraflı təhlil edir. |
| FTN 6 Sahibkar yardımçıları, ticarət agenti, konsessioner, komisyonçu, françayzer, əqli və sənaye mülkiyyəti hüquqları, haqsız rəqabət, əmtəə nişanları kimi vacib məsələləri aydınlaşdırır, bununla əlaqədar fərqləndirmələr aparır və tətbiqetmədə istifadə edir. |
| **Avropa hüququ** |
| FTN 1 Millətüstü hüquq sistemi olaraq Avropa hüququnun əsas xüsusiyyətlərini və istiqamətlərini düzgün müəyyən etməklə onu digər beynəlxalq təşkilatların daxili hüququndan fərqləndirir. |
| FTN 2 Avropa hüququnun beynəlxalq hüquq sistemi ilə qarşılıqlı əlaqə xüsusiyyətlərini və mexanizmini bilir. |
| FTN 3 Avropa hüququnun üzv dövlətlərin və üzv olmayan dövlətlərin hüquq sisteminə təsirini fərqləndirir. |
| FTN 4 Avropa hüququnda normayaradıcılığı təcrübəsini mənimsəməklə ondan düzgün və müvafiq sfearalarda istifadə edir. |
| FTN 5 Avropa standartları ilə Azərbaycan Respublikasının dövlətdaxilıi qanunvericiliyinin harmonizasiyası imkanlarını müəyyən edir. |
| FTN 6 Avropa hüququnun ayrı-ayrı sahələrinin əhəmiyyətindən və əsas xüsusiyyətlərindən istifadə etməklə, Azərbaycan Respublikası dövlətdaxili qanunverriciliyinin müxtəlif sferalarda inkişaf etdirilməsini əsaslandırır. |
| **Beynəlxalq xüsusi hüquq** |
| FTN 1 Tənzimetmə obyekti olaraq xarici elementli xüsusi hüquq münasibətlərini eyni xarakterli milli hüquq münasibətlərindən fərqləndirir. |
| FTN 2 Xarici elementlə bağlı müxtəlif dövlətlərin hüquqi sistemləri arasında kolliziyaların yaranma səbəblərini öyrənməklə onların aradan qaldırılması metodlarından istifadə edir. |
| FTN 3 Mübahisələrin həlli üzrə beynəlxalq məhkəmə aidiyyatını müəyyən edən qaydaları əsaslandırır. |
| FTN 4 Kolliziya normasını düzgün müəyyən edir. |
| FTN 5 Xarici məhkəmələrin və beynəlxalq arbitrajların qərarlarının icrası xüsusiyyətlərini müəyyən edir. |
| FTN 6 Beynəxalq xüsusi hüquq üzrə beynəlxalq və dövlətdaxili hüquq normalarının birgə istifadə olunması xüsusiyyətlərini və qaydasını tətbiq edir. |
| **Mülki-prosessual hüquq** |
| FTN 1 Mülki hüquqların məhkəmədə müdafiəsinin əsas istiqamətləri və xüsusiyyətləri üzrə xüsusi biliklər əldə edir. |
| FTN 2 Mülki-prosessual hüquq normalarını düzgün tövsif və tətbiq edir, faktlar və işin hallarını |

| |
|---|
| hüquqi cəhətdən ətraflı qiymətləndirir. |
| FTN 3 Mülki prosesdə insan hüquqlarının təminatı istiqamətində təhlilləri, o cümlədən, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin müvafiq presedent hüququnun öyrənilməsini və ümumiləşdirilməsini müəyyən edir. |
| FTN 4 Zəruri prosessual sənədlərin, məsələn, iddia ərizəsi, vəsatət, şikayət, məhkəmə aktları və s. düzgün tərtib edilməsi qaydalarını və xüsusuyyətlərini əldə edir. |
| FTN 5 Hər bir məhkəmə instansiyasında prosesin mahiyyətini düzgün başa düşür və əsaslandırır. |
| FTN 6 Proses iştirakçılarının hüquq və vəzifələri barədə nəzəri müddəaları mənimsəməklə, mülki prossesual hüquqa müasir baxişlardan yanaşmaq bacarığı əldə edir. |
| **Cinayət-prosessual hüquq** |
| FTN 1 Cinayət-prosessual hüququn prinsiplərini və nəzəri əsaslarını, cinayət-prosessual qanunvericliyin əsas institutlarını, məhkəməyədək icraatın, məhkəmə icraatının və xüsusi cinayət-prosessual icraatların prosedur qaydalarını öyrənir. |
| FTN 2 Ölkədə aparılan məhkəmə-hüquq islahatlarının mahiyyətini və əhəmiyyətini izah edir, bu islahatların davamını proqnozlaşdırır. |
| FTN 3 Cinayət mühakimə icraatında insan hüquqlarının təminatı istiqamətində təhlilləri, o cümlədən, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin müvafiq presedent hüququnun öyrənilməsini və ümumiləşdirilməsini müəyyən edir. |
| FTN 4 Müasir istintaq və məhkəmə təcrübəsindən empirik baza kimi istifadə etməklə cinayət-prosessual hüququn təcrübədə tətbiq edilməsi problemlərini araşdırır, təcrübi fəaliyyətin təkmilləşdirilməsi üçün tövsiyələr irəli sürür. |
| FTN 5 Prosessual sənədlərin, məhkəmə qərarlarının, hökmlərin və cinayət-prosessual hüquq münasibətləri ilə əlaqədar digər prosessual rəsmiləşdirmə vasitələrinin səmərəli tətbiqi nümunələri və vərdişləri əldə edir. |
| FTN 6 Qüvvədə olan cinayət-prosessual qanunvericiliyin normalarının doktrinal şərhini nəzərdə tutur, bu normaların rəsmi təfsiri üçün nəzəri və metodoloji baza yaradır. |
| **İnzibati-prosessual hüquq** |
| FTN 1 İnzibati-prosessual hüquqa dair əsas anlayışlardan istifadə edir, Azərbaycan Respublikasının inzibati-prosessual qanunvericiliyinin qanunvericilik ierarxiyasında yerini müəyyən edir, inzibati-prosessual qanunvericilikdə mövcud olan kolliziyaların mahiyyətini aydınlaşdırır və onları təhlil edir. |
| FTN 2 Azərbaycan Respublikasında məhkəmə orqanları sistemində inzibati məhkəmələr və inzibati kollegiyaların mahiyyətini və əsas xüsusiyyətlərini izah edir. |
| FTN 3 İnzibati məhkəmə icraatına dair təhlil aparır, inzibati məhkəmə icraatı qaydasında işlərə baxılarkən məhkəmə prosesini idarə edir və müvafiq qanunvericiliyi tətbiq edir. Eyni zamanda, inzibati məhkəmə icraatında insan hüquqlarının təminatı istiqamətində təhlilləri, o cümlədən, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin müvafiq presedent hüququnun öyrənilməsini və ümumiləşdirilməsini müəyyən edir. |
| FTN 4 İnzibati məhkəmə icraatı qaydasında baxılan iddiaları müəyyən edir və fərqləndirir. |
| FTN 5 Birinci instansiya və apellyasiya instansiyaları məhkəmələri, kassasiya instansiyası |

| |
|---|
| məhkəməsində icraatın mahiyyətini, iştirakçılarını və normativ əsaslarını müəyyən edir, yeni açılmış hallar üzrə icraatın mahiyyətini, iştirakçılarını və normativ əsaslarını müəyyən edir. |
| FTN 6 Məhkəmə qərarları və onların icrasına dair hüquqi tənzimetmənin əsas xüsusiyyətlərini və qaydasını tətbiq edir. |
| **Mülki müdafiə** |
| FTN 1 Fövqəladə hadisələrin təsnifatı, onların tam xarakteristikası, Mülki müdafiənin yaranma tarixi, onun fövqəladə hallarda rolu və vəzifələrini öyrənmək. Mülki müdafiə ilə bağlı normativ-hüquqi sənədləri bilmək. |
| FTN 2 Müasir dövrdə - sülh və müharibə dövrlərində Mülki müdafiənin rolunu və vəzifələrini bilmək. Texnogen fövqəladə hallarda hadisələrin qarşısının alınması yolları, bakterioloji, kimyəvi və radiasiya şəraitində əhalinin davranış qaydalarını, mahiyyətini bilmək. Karantin, observasiya şəraitində, sanitar təmizliyi, ərazinin dezinfeksiyası, kimyəvi zəhərlənmə ocaqlarındadeqazasiya, radiasiya şəraitində isə dezaktivasiya üsullarını bilmək. |
| FTN 3 Fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün Dövlət sisteminin rolu və vəzifələrini bilmək. Hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin yaradılmasını öyrənmək. |
| FTN 4 Fövqəladə hallar zamanı əhalinin mühafizəsinin təşkilini həyata keçirmək. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bilmək. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilmək. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini bacarmaq. Fövqəladə hallar zamanı əhalinin səmərəli mühafizəsinin təşkilini bacarmaq. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bacarmaq. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilmək. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini həyata keçirmək. |
| FTN 5 Mülki müdafiə kəşfiyyatının təşkili və aparılması qaydalarını bilmək. Radiasiya və kimyəvi kəşfiyyat cihazlarını işlətməyi bacarmaq. Mülki müdafə üzrə idaretmə, mülki müdafiə qərargahları və onların əsas vəzifələrini bilmək. |
| FTN 6 Fövqəladə halların nəticələrinin aradan qaldırılması yollarını bilmək. Qəza- xilasetmə və digər təxirəsalınmaz işlərin dağıntı ocaqlarında təşkil etmək və aparılmasını həyata keçirmək. Əhalinin mülki müdafiə sahəsində hazırlanmasının prinsiplərini öyrənmək. Fövqəladə hadisələrdə dağıntı ərazisində ilk tibbi yardım aparmağı bacarmaq. |

**Əlavə 2**

## Fənlərin və Təhsil Proqramının təlim nəticələrinin matrisi

Ali təhsil müəssisəsi aşağıdakı cədvəldən istifadə edərək ixtisasın Təhsil Proqramının təlim nəticələrinin əldə olunmasına fənnlərin necə dəstək verdiyini müəyyən etməlidir.

| Blokun adı | Fənlərin adı | Proqramın təlim nəticələri | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 | PTN 8 | PTN 9 | PTN 10 | PTN 11 | PTN 12 |
| Ümumi fənlər | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | | | X | X | | | | | | | | |
| | Azərbaycanın müasir dövlətçilik tarixi | | | | | X | | | | | | | |
| | Xarici dildə işgüzar və akademik kommunikasiya | | | X | | | | | | | | | |
| İxtisas fənləri | Hüquq nəzəriyyəsi | X | X | X | X | X | X | X | X | X | X | | |
| | Hüquqi yazı | X | X | X | X | | | X | | | | X | X |
| | Azərbaycanın hüquq tarixi | X | X | X | X | X | | | | | | | |
| | Konstitusiya hüququ | X | X | X | X | X | X | X | X | X | X | X | X |
| | Mülki hüquq | X | X | X | X | X | X | X | X | X | | X | X |
| | Cinayət hüququ | X | X | X | X | X | X | X | X | X | | X | X |
| | Beynəlxalq ümumi hüquq | X | X | X | X | X | X | X | X | X | X | | X |
| | İnsan hüquqları | X | X | X | X | X | X | X | X | X | X | X | X |
| | İnzibati hüquq | X | X | X | X | | X | X | | X | | X | X |
| | Əmək hüququ | X | X | X | X | | X | X | | X | | X | X |
| | Maliyyə hüququ | X | X | X | X | | X | X | | X | | X | X |
| | Kommersiya hüququ | X | X | X | X | | X | X | | X | | X | X |
| | Avropa hüququ | X | X | X | X | | X | X | X | X | X | | X |
| | Beynəlxalq xüsusi hüquq | X | X | X | X | | X | X | | X | | X | X |
| | Mülki-prosessual hüquq | X | X | X | X | | X | X | | X | | X | X |
| | Cinayət-prosessual hüquq | X | X | X | X | | X | X | | X | | X | X |
| | İnzibati-prosessual hüquq | X | X | X | X | | X | X | | X | | X | X |
| | Mülki müdafiə | | X | X | X | | | | | | | X | |